*Heydər Əliyev - xalq birliyi əbədidir!*

# AĞSTAFA

*“Ağstafanın füsunkar təbiəti, gözəl insanları vardır”.*
*Heydər Əliyev*

Qəzet 1991-ci ildən çıxır | İctimai-siyasi qəzet | № 19-20 (1012-1013) | 10-23 oktyabr 2017-ci il | Qiyməti 50 qəpik

Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı

## Prezident İlham Əliyev İstanbulda D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının IX Zirvə görüşündə xüsusi qonaq qismində iştirak edib




İstanbulda İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) “Əməkdaşlıq yolu ilə imkanları artırmaq” devizi altında IX Zirvə görüşü keçirilib.

Prezident İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə xüsusi qonaq qismində Zirvə görüşündə iştirak edib.

Zirvə görüşü müqəddəs “Qurani-Kərim”dən ayələrin oxunması ilə başladı.

İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının - D-8-in baş katibi Seyid Ali-Mohammad Musəvi Zirvə görüşünü açıq elan edərək tədbirin əhəmiyyətindən danışdı.

D-8 təşkilatının hazırkı sədri, Pakistanın Baş naziri Şahid Xaqan Abbasi qurumun müasir dövrdə fəaliyyətinin daha da genişləndirilməsində üzv ölkələrin səylərinin gücləndirilməsinin vacibliyini vurğuladı. Qeyd etdi ki, Pakistan D-8 təşkilatına sədrliyi dövründə bu qurumun möhkəmlənməsinə və inkişafına çalışıb. Məhz bu dövrdə D-8 BMT-də müşahidəçi statusu əldə edərək beynəlxalq səviyyədə mövqeyini gücləndirib. Pakistanın Baş naziri dedi ki, qurumun üzvləri 20 il ərzində iqtisadiyyat, ticarət, nəqliyyat, turizm və digər sahələrdə əlaqələri inkişaf etdiriblər.



## Prezident İlham Əliyev MDB Sərhəd Qoşunları Komandanları Şurasının 78-ci iclasının iştirakçılarını qəbul edib

Prezident İlham Əliyev MDB Sərhəd Qoşunları Komandanları Şurasının Bakıda keçiriləcək 78-ci iclasının iştirakçılarını qəbul edib.

Görüşün iştirakçılarını salamlayan Prezident İlham ƏLİYEV dedi:

- Xoş gəlmisiniz. Sizi Azərbaycanda salamlamağa məmnunam. Şadam ki, MDB ölkələrinin sərhəd xidmətləri rəhbərlərinin iclası bizim ölkəmizdə keçirilir. Azərbaycanın belə bir tədbirə ev sahibliyi etməsi birinci dəfə deyil. Biz sizinlə görüşmüşük, ola bilsin ki, tamamilə indiki tərkibdə olmayıb, amma sizin çoxunuz artıq bizim ölkəmizdə olub. Bu, çox yaxşı tədbirdir. Bu, təkcə sərhəd xidmətlərinin rəhbərləri arasında deyil, həm də ölkələrimiz arasında əməkdaşlığı möhkəmləndirir.

Bu yaxınlarda Soçidə MDB-nin növbəti sammiti keçirildi. Azərbaycan həmin tədbirdə fəal iştirak etdi. Ümumiyyətlə, biz MDB məkanında bir çox mühüm işlərdə fəal iştirak edirik. Əlbəttə, təhlükəsizliyin, sərhədlərin qorunmasının möhkəmləndirilməsi bizim bütün ölkələrimiz üçün böyük əhəmiyyət kəsb edir. Bu, ölkələrimizin və xalqlarımızın təhlükəsizliyinin əsasıdır. Bizim vətəndaşların normal, rahat həyatı da çox cəhətdən sizin rəhbərlik etdiyiniz xidmətlərin uğurlu fəaliyyətindən asılıdır. Buna görə də heç şübhəsiz, bizim ölkələrimizin rahat, normal, sabit inkişafı da sizin aranızda əməkdaşlıqdan, informasiya mübadiləsindən, qarşılıqlı fəaliyyətdən asılıdır.



## Prezident İlham Əliyev Ukrayna Baş nazirinin birinci müavininin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib

Prezident İlham Əliyev oktyabrın 19-da Ukrayna Baş nazirinin birinci müavini, iqtisadi inkişaf və ticarət naziri Stepan Kubivin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Stepan Kubiv Ukrayna Prezidenti Petro Poroşenkonun salamlarını dövlətimizin başçısına çatdırdı.

Söhbət zamanı Azərbaycan ilə Ukrayna arasında iqtisadiyyat və ticarət sahələrində əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı Ukrayna Prezidenti Petro Poroşenkonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Ukrayna Prezidentinə çatdırmağı xahiş etdi.

## Prezident İlham Əliyev Polşanın xarici işlər nazirini qəbul edib



Prezident İlham Əliyev Polşaya builki səfərini məmnunluqla xatırlayaraq bu səfərin uğurla keçdiyini və yaxşı nəticələr verdiyini vurğuladı. Dövlətimizin başçısı ölkələrimiz arasında əməkdaşlığın və əldə edilmiş uğurların siyasi, iqtisadi, qarşılıqlı ticarət, investisiya, enerji, nəqliyyat sahələrində daha da genişləndirilməsinin önəmini qeyd etdi və bildirdi ki, Azərbaycan bu istiqamətdə fəal iş aparır.

Prezident İlham Əliyev Şərq Tərəfdaşlığı Proqramına üzv dövlətlərə eyni münasibət göstərilməsinin vacibliyini vurğuladı.

Polşanın xarici işlər naziri Vitold Vaşçikovski Polşa Respublikasının Prezidenti Andjey Dudanın salamlarını dövlətimizin başçısına çatdırdı. Vitold Vaşçikovski Prezident İlham Əliyevin Polşaya səfərini məmnunluqla xatırlayaraq bu səfərin əlaqələrimizin möhkəmləndirilməsi baxımından böyük önəm daşıdığını qeyd etdi. Polşanın xarici işlər naziri bildirdi ki, ölkəsi Azərbaycan ilə əlaqələri genişləndirmək və inkişaf etdirmək niyyətindədir. Şərq Tərəfdaşlığı çərçivəsində əməkdaşlığa toxunan Vitold Vaşçikovski Avropa İttifaqının xarici siyasətində bu istiqamətin xüsusi əhəmiyyət daşıdığını qeyd etdi və Avropa İttifaqının əlaqələrin genişləndirilməsində maraqlı olduğunu dedi.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesinin hazırkı vəziyyəti ətrafında fikir mübadiləsi aparıldı, Ermənistan tərəfinin danışıqlar prosesini uzatmağa meyilli olduğu qeyd edildi. Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Cənub Qaz Dəhlizinin və nəqliyyat dəhlizlərinin yaradılmasında Azərbaycanın əhəmiyyətli rolu vurğulandı.

Dövlətimizin başçısı Polşa Prezidenti Andjey Dudanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Polşa Prezidentinə çatdırmağı xahiş etdi.



# Səyyar görüşlər öz bəhrəsini verir

Hər görüş neçə problemin uğurlu icrasına yol açır.

Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev ictimaiyyətlə növbəti səyyar görüşünü şəhərin Heydər Əliyev prospektindəki 16 ailəlik çoxmənzilli yaşayış binalarının qarşısında keçirdi. İcra hakimiyyətinin başçısı binanın sakinləri ilə səmimi söhbət əsnasında ölkə rəhbərliyinin tapşırığına əsasən Ağstafada görülən işlər və eləcə də ağstafalılara yüksək dövlət qayğısından danışdı.



Sakinlər binanın ətrafının asfaltlanması, işıqlandırma sisteminin yenilənməsi və ərazidə aparılmış abadlıq işləri üçün minnətdarlıqlarını bildirdilər. Bununla yanaşı, binanın özünün də təmir olunmasını xahiş etdilər. İcra hakimiyyətinin başçısı bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin konkret tapşırığına uyğun bütün rayonlarda, o cümlədən Ağstafa rayonunda yerləşən çoxmənzilli yaşayış binalarının əksəriyyəti artıq təmir olunmuşdur. Binaların dam örtükləri, qapı və pəncərələri dəyişdirilir, elektrik-rabitə xətləri yenilənir. Binaların ətrafında abadlıq-quruculuq işləri həyata keçirilir, dekorativ döşəmə daşları düzülür, müasir işıqlandırma sistemi quraşdırılır, sakinlərin rahatlığı üçün müvafiq istirahət guşələri yaradılır. Ölkə rəhbərliyinin bu istiqamətdə həyata keçirdiyi tədbirlərin əsas məqsədi sakinlərimizin kommunal şəraitinin daha da yaxşılaşdırılmasından, onların öz mənzillərində maksimum rahat, qayğısız yaşamalarını təmin etməkdən ibarətdir.

Məhərrəm Quliyev sakinlərə bildirdi ki, yaxın zamanda bu binada da əsaslı təmir işlərinə başlanılacaqdır.

# Aqroservis MMC-nin ikinci layihəsinin icrası sürətlə davam etdirilir

"Ağstafa Aqroservis" MMC-nin ikinci layihəsi olan Taxıl və Un Məmulatları İstehsalı Kombinatının inşasına 2015-ci ilin martında başlanılıb. Aqroservisin nəzdində yaradılan taxıl və un məmulatları istehsalı kombinatının taxıl anbarının təməl qoyma mərasimində iştirak etmiş, ümumi sahəsi 5048 kvadratmetr olan hazır məhsullar anbarı ilə yaxından tanış olmuşdur. Dövlət başçısı ümumilikdə "Ağstafa Aqroservis" MMC-nin layihələri çərçivəsində görülən işləri yüksək qiymətləndirilmişdir.





Layihəyə uyğun olaraq "Toxumluq taxıl emalı", "Taxıl emalı və un istehsalı" və "Çörək və yarımfabrikatlar istehsalı" üç zavoddan ibarət olacaq Ağstafa Taxıl və Un Məmulatları İstehsalı Kombinatının inşaat işləri sürətlə davam etdirilir. Rayon İcra hakimiyyətinin başçısı cənab Məhərrəm Quliyev rayonun bir sıra məsul şəxsləri ilə birlikdə növbəti dəfə burada görülən işlərlə yaxından tanış olmuşdur. Burada saatda 1,0 ton istehsal gücü olacaq çörək və yarım fabrikatlar sexi, saatda 25,0 ton istehsal güclü toxum istehsal zavodu 30,0 min tonluq taxıl, 2,0 min tonluq un rezervuarları, mədəniyyət mərkəzi, 300 yerlik konfrans zalı, hazır məhsul anbarı, iki mərtəbəli fasfud iaşə obyekti, 140 yerlik yeraltı avtomobil dayanacağı, yem anbarı yaradılır. M.Quliyev burada aparılan işlərin gedişini yüksək qiymətləndirmişdir və bildirmişdir ki, Ağstafanın sosial-iqtisadi həyatında mühüm əhəmiyyət kəsb edərək bu layihə hazır olduqda burada 240 nəfər daimi işlə təmin ediləcəkdir. Tikinti işlərinin mərhələlərlə yaxın aylarda yekunlaşması nəzərdə tutulur.




**Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında Azərbaycan Respublikası Baş prokurorunun 01.11.2010-cu il tarixli 10/100 №-li əmrinə əsasən 2017-ci ilin 4-cü rübündə vətəndaşların yaşayış və iş yerləri üzrə**

## qəbul cədvəli

| Sıra №-si | Yaşayış və iş yeri | Qəbul günü | Qəbul saatı | Qəbulu aparan şəxsin vəzifəsi, adı və soyadı saatı |
|---|---|---|---|---|
| 1 | Ağstafa rayonu Həsənsu kəndi | 04 oktyabr | 15:00 | Prokuror Aslan Surxayev |
| 2 | Ağstafa rayonu Saloğlu kəndi | 28 oktyabr | 15:00 | Prokuror köməkçisi Rəhim Hüseynli |
| 3 | Ağstafa rayonu Tatlı kəndi | 16 noyabr | 15:00 | Prokurorun böyük köməkçisi Emil Qurbanov |
| 4 | Ağstafa rayonu Dağ Kəsəmən kəndi | 29 noyabr | 15:00 | Prokuror Aslan Surxayev |
| 5 | Ağstafa rayonu Poylu kəndi | 07 dekabr | 15:00 | Prokuror köməkçisi Rəhim Hüseynli |
| 6 | Ağstafa rayonu Böyük Kəsik kəndi | 27 dekabr | 15:00 | Prokurorun böyük köməkçisi Emil Qurbanov |

# Dövlət Müstəqilliyi günü





Bu günlərdə Ağstafa şəhərindəki Heydər Əliyev Mərkəzində 18 oktyabr - Dövlət Müstəqilliyi günü münasibətilə elmi konfrans keçirilmişdir. Milli Müstəqilliyimizin 26-cı ildönümünə həsr olunmuş elmi konfransa rayonumuzun Müharibə Veteranları, idarə və müəssisə kollektivlərinin nümayəndələri, ziyalılar və ağsaqqallar dəvət olunmuşdular.

Konfransı giriş sözü ilə Rayon İcra Hakimiyyəti başçısının humanitar məsələlər üzrə müavini Lalə Eyyubova açmışdır. O qeyd etmişdir ki, 26 il bundan əvvəl 1991-ci iloktyabrın 18-də Azərbaycan Rusiya imperializminin dağılmasından sonra ikinci dəfə öz müstəqilliyini elan etmişdir. Ancaq müstəqilliyimizin ilk illəri çox maneələrə rast gəldi, məhv olmaq təhlükəsi ilə üzüzə qaldı. Bu vəziyyətdən istifadə edən erməni təcavüzkarlarının torpaqlarımıza təcavüzü də çətin problemlər yaratdı. Belə bir ağır gündə dünya şöhrətli siyasətçi Heydər Əliyevin Hakimiyyətə gəlməsi xalqımızı bu bəladan qurtardı. Onun rəhbərliyi ilə müstəqil respublikamız dövlətçiliyin möhkəmləndirilməsi yolunda uğurlu addımlar atdı, böyük islahatlar həyata keçirdi. Bunun əməli bəhrəsi olaraq qısa bir müddətdə Azərbaycan böyük uğurlar əldə etdi, dünyanın inkişaf etmiş ölkələri sırasına qalxdı. Heydər Əliyev kursunu uğurla davam etdirən Respublika prezidenti İlham Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində müstəqillik illərində Ağstafamız da simasını başdan-başa dəyişmiş, yenidənqurma, tikinti və abadlıq meydanına çevrilmişdir. Xalqımız bu gün də əminliklə inanır ki ümummilli lider Heydər Əliyevin müdrik kəlamları öz təsdiqini tapır: "Müstəqilliyimiz dönməzdir, daimidir, əbədidir".

Dövlət müstəqilliyinin ildönümünə həsr olunmuş konfransda Ağstafa şəhər 2 nömrəli tam orta məktəbin tarix müəllimi "Əməkdar müəllim" Sevda Əliyeva, Qarabağ əlilləri, müharibə veteranları və şəhid ailələri ictimai birliyi rayon şöbəsinin sədri Yaqub İsmayılov "Ağstafa" rayon qəzetinin baş redaktoru İbrahim Əliyev, YAP Ağstafa rayon şöbəsi, Gənclər Təşkilatının sədri Elvin İmaməliyev çıxış etmişlər.

Rayon İcra Hakimiyyəti başçısının humanitar məsələlər üzrə müavini Lalə Eyyubova elmi konfransa yekun vurmuşdur.

# Gənclər təntənəli şəkildə hərbi xidmətə yola salındı

***"Azərbaycan Respublikası vətəndaşlarının 2017-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidməti hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamının icrası ilə bağlı Ağstafa ayonunda gənclərin hərbi xidmətə yola salınması münasibəti ilə təntənəli mərasim keçirildi. Tədbir Heydər Əliyev Mərkəzinin qarşısında təşkil olunmuşdur. Tədbirdə Ağstafa rayon icra hakimiyyətinin başçısı cənab Məhərrəm Quliyev, rayon hüquq-mühafizə orqanlarının rəhbərləri, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin əməkdaşları, rayon ağsaqqalları və Qarabağ müharibəsi əlilləri, yerli icra nümayəndələri və bələdiyyə sədrləri, çağırışçı gənclər, valideynlər, eləcə də rayon ictimaiyyətinin nümayəndələri iştirak edirdilər.***





Tədbir təşkilatçıları ilk öncə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzdülər, dahi rəhbərin əziz xatirəsinə ehtiramlarını bildirdilər. Mərasimi giriş sözü ilə açan Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev hərbi xidmətə yola salınan gəncləri, onların valideynlərini və doğmalarını ürəkdən təbrik etdi. Dövlətimizin və xalqımızın onlara bəslənən ümidlərini layiqincə doğruldacaqlarına, Vətənə şərəflə xidmət edəcəklərinə əminliyini bildirdi. O qeyd etdi ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında ordumuz Qafqazın ən qüdrətli ordusuna çevrilmişdir. Hərbi hissələrimizdə əsgər və zabitlərimizin xidməti üçün ən yüksək şərait yaradılıb. Azərbaycan ordusunun peşəkarlığı, döyüş qabiliyyəti günbəgün artır. Hazırda Azərbaycan ordusunu maddi-texniki təchizatı ən yüksək səviyyəyə çatdıtılmışdır. Bu isə ordumuzun döyüş potensialını, ruh yüksəkliyi və vətənpərvərlik hisslərini artırır, möhkəmləndirir. Azərbaycan Silahlı Qüvvələrində xidmət keçən hərbi qulluqçuların, əsgər və zabitlərin sosial müdafiəsi istiqamətində zəruri tədbirlər görülür, onlar dövlət tərəfindən hər cür qayğı ilə əhatə edilir.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin rəis müavini Füzuli Əliyev tədbirdə çıxış edərək çağırışçılara ilk gündən hərbi xidmətdə məsuliyyətli olmalarını, əmrləri düzgün yetirmələrini, eləcə də komandirlərin məsləhətlərinə diqqətlə qulaq asmalarını tövsiyə etdi.



Daha sonra çıxış edənlər şəhid atası Yaqub İsmayılov, rayon ağsaqqalı Misir Həsənov, valideyn Kamal Yusifov da bu əlamətdar gün münasibətilə öz ürək sözlərini bildirdi və çğırışçılara uğurlu həbi xidmət azuladılar.

Çağırışçı Tofiq Passanov öz çıxışında Vətənə xidmət etmək üçün yola düşdüyünə görə qürur hissi keçirdiyini və yoldaşları adından onlara göstərilən bu müqəddəs etimadı layiqincə doğruldacaqlarını bildirdi.



Rayonun mədəniyyət işçilərinin təqdim etdikləri geniş konsert proqramından sonra çağırışçılar üçrəngli bayrağı öpərək müqəddəs Quran kitabının altından keçdilər və Heydər Əliyevin abidəsi önündə rayon rəhbərliyi və çağırışçılar xatirə şəkli çəkdirdilər.

Sonda çağırışçılar rayon rəhbərliyi və doğmaları ilə görüşərək yüksək əhval-ruhiyyədə onlara ayrılmış xüsusi avtobusda məsul şəxslərin müşayiəti ilə müddətli həqiqi hərbi xidmətə yola salındılar.

# "Ölkəmizin nailiyyətləri" mövzusunda seminar-treninq keçirildi

***Bu günlər Köçəsgər kəndində 1 saylı tam orta məktəbinin akt zalında "Ölkəmizin nəaliyyətləri" mövzusunda seminar-treninq keçirilmişdir. Tədbirdə rayon icra hakimiyyətinin məsul işçiləri, bir sıra idarə, müəssisə və təşkilat rəhbərləri, eləcə də kənd ictimaiyyətinin nümayəndələri iştirak etmişdir.***





Tədbiri giriş sözü ilə rayon icra hakimiyyətinin birinci müavini Ramiz Tatarov açaraq ölkəmizin sürətlə sosial-iqtisadi inkişafından, hərbi gücündən, mövcud siyasi sabitliyindən, beynəlxalq arenadakı və regiondakı yüksək nüfuzundan və uğurlarından geniş danışdı. O, qeyd etdi ki, bütün bu uğurlar Ulu öndərimiz Heydər Əliyevin fəaliyyətinin hər bir məqamı ilə xalqın, dövlətin, cəmiyyətin və onun üzvlərinin mənafeyinə xidmət etməsinin, Azərbaycan dövətinin və xalqının bütövlüyü uğrunda fədakarlıqla çalışmasının nəticəsidir. Bu gün də ölkəmizdə əldə olunan nəaliyyətlər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında davam etdirilir.



İcra başçısının birinci müavini həmçinin Ağstafa rayonunda son illər qoyulan yerli və xarici investisiyalardan, reallaşdırılan irimiqyaslı sosial infrastruktur layihələrdən, görülən geniş abadlıq-quruculuq işlərindən, yeni yaradılan sənaye, istehsal və xidmət sahələrindən, hazırda icrası davam etdirilən və gələcəkdə həyata keçiriləcək infrastruktur layihələrdən geniş söz açdı.

Tədbirdə iştirak edən Köçəsgər kənd sakinləri Hətəm Əsgərov, Vəli Babayev, Talış Tağıyev, Nizami Əliyev, Allahqulu Həsənov da mövzuya dair öz fikirlərini bildirdilər. Qeyd olundu ki, ölkəmizin bütün böldələrində, o cümlədən Ağstafa rayonunun bütün sahələrində inkişaf, şəhər, qəsəbə və kəndlərin abadlaşması, gözəlləşməsi ilə yanaşı orada yaşayan əhalinin də sosial rifah halının, həyat tərzinin yüksəlməsinə səbəb olmuşdur. Bütün bunlar isə dövlətimizin yürütdüyü məqsədyönlü siyasət sayəsində mümkün olmuşdur. Tədbirin sonunda kənd ictimaiyyəti ilə səmimi söhbət aparıldı və son illər Köçəsgər kəndində aparılan işlərdən, qarşıda duran problemlərdən danışıldı.

Həmin mövzuda növbəti treninq Dağ Kəsəmən kəndindəki 1 saylı tam orta məktəbin iclas zalında keçirildi. İclasda RİH başçısının müavini Aydın Hacıyev müzakirə edilən məsələ barədə geniş məlumat verdi. Sonra çıxışlar oldu.

Rayon Ağsaqqallar Şurasının sədri F.Heydərli, "Ağstafa" qəzetinin baş redaktoru İ.Əliyev, əmək veteranı M.Həsənov, məktəbin direktoru M.Nəbiyev çıxış etdilər.

***İ.Əliyev***

# Qarşıya qoyulmuş vəzifələr

**Rayon İcra Hakimiyyəti başçısı yanında keçirilən növbəti şura iclasında "Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin sədrliyi ilə oktyabrın 9-da Nazirlər Kabinetinin 2017-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasından irəli gələn məsələlərin Ağstafa rayonunda həyata keçirilməsinə dair" məsələ müzakirə olundu. Məsələ ilə əlaqədar RİH başçısının müavini Aydın Hacıyev məruzə etdi.**

Məruzəçi qeyd etdi ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə oktyabrın 9-da Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.

Bu ilin doqquz ayında ölkəmiz uğurla və hərtərəfli inkişaf etmiş, bütün sahələrdə dinamik inkişaf təmin olunmuşdur. Bu ilin doqquz ayında qeyri-neft iqtisadiyyatı 2.5 faiz artmışdır. Qeyri-neft sektorunun sənaye hissəsində artım 3.1 faiz, kənd təsərrüfatında 2.8 faiz təşkil edib, xarici ticarət dövriyyəsi 7 faiz artmışdır. Doqquz ayda Azərbaycanın valyuta ehtiyatları 4.5 milyard dollar həcmində artaraq 42 milyard dollar səviyyəsində olmuşdur.

Ötən dövrdə ölkədə əsas infrastruktur , o cümlədən yeni yolların çəkilişi, içməli su, qazlaşdırma, elektrik enerjisi ilə təminat, meliorasiya ilə bağlı layihələr uğurla icra edilmiş, yeni məktəblər və tibb ocaqları tikilib və əsaslı təmir edilmişdir. Doqquz ayda 226 min yeni iş yerləri yaradılmışdır.

2017-ci ilin 9 ayı ərzində Ağstafa rayonu üzrə ümumi məhsul buraxılışının həcmi 43.6 faiz artaraq 143.7 milyon manata çatmışdır. Keçən ilin eyni dövrü ilə müqayisədə sənaye məhsulunun ümumi həcmi 38.3 faiz, kənd təsərrüfatı məhsullarının həcmi 0.9 faiz artmış, nəqliyyat xidmətində 3.3 faiz, rabitə xidmətində 4.3 faiz, ticarət sahəsində 0.4 faiz, tikinti sahəsində 3.0 dəfə artım olmuşdur. Əsas kapitala yönəldilən investisiyaların həcmi 2.7 dəfə artmış və 68.7 milyon manatdan çox olmuşdur. Əhaliyə göstərilən pullu xidmətlərin həcmi 0.9 faiz, pərakəndə əmtəə dövriyyəsi 0.9 faiz artmışdır. Rayon üzrə orta aylıq nominal əmək haqqı 240.70 manata çatdırılmışdır.

2017-ci ilin yanvar-sentyabr ayları ərzində yerli gəlirlər üzrə proqnoz 121.0 faiz yerinə yetirilmişdir. Yerli gəlirlər 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 653.6 min manat çox icra olunmuşdur. Büdcəyə daxil olan vəsaitlər ilk növbədə əmək haqqına və ona bərabər tutulan xərclərə yönəldilmişdir. Yerli büdcənin icrasında artıq xərcə yol verilməmiş, digər xərclər ay və rüb bölgüləri gözlənilməklə həyata keçirilmişdir.

ƏƏSMN yanında DSMF-nin Ağstafa rayon şöbəsi 11710 nəfər pensiyaçıya xidmət edir. 2017-ci ilin doqquz ayı ərzində 400 nəfərə əmək pensiyası təyin edilmişdir, bir nəfərə düşən orta aylıq pensiyanın məbləği rayon üzrə 178.25 manat təşkil edir. 9 ay ərzində əmək pensiyalarının maliyyələşdirilməsinə 19.0 milyon manat, müxtəlif növ müavinətlərin ödənilməsinə 519.6 min manat vəsait xərclənmişdir.

DSMF-nin Ağstafa rayon şöbəsi tərəfindən bu ilin 9 ayı ərzində məcburi dövlət sosial sığorta haqqı üzrə proqnoza 84.5 faiz əməl olunmuş və büdcə təşkilatları üzrə daxilolma 83.8 faiz, qeyri büdcə təşkilatları üzrə 93.2 faiz olmuşdur. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdən toplanan proqnoz tapşırığa 83.0 faiz əməl olunmuşdur. Dövlət Sosial Müdafiə Fondunun Ağstafa rayon şöbəsinin rəhbərliyi proqnoz tapşırıqların yerinə yetirilməsi üçün ciddi tədbirlər görməlidir.



"Azərpoçt" MMC-nin Ağstafa Poçt filialı 2017-ci ilin 9 ayı ərzində plan proqnoz tapşırıqlarını 114.0 faiz yerinə yetirmişdir. Ağstafa Poçt Filialı əhaliyə göstərilən xidmətin keyfiyyətini yüksəltməli və kəndlərdə poçt şöbələri üçün yeni binaların tikintisinin həyata keçirilməsi üçün tədbirlər görməlidir.

2017-ci ilin 9 ayı ərzində rayon ərazisində fəaliyyət göstərən banklar və bank olmayan kredit təşkilatları vasitəsilə əhaliyə cəmi 3 mln. 986 min manat kredit verilmişdir. Nəzərinizə çatdırım ki, 2016-cı ilin eyni dövrü ilə müqayisədə əhalinin banklardan götürdüyü kreditlərin həcmində 42 faiz azalma müşahidə olunur. Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına rayon üzrə sahibkarlıq subyektlərinə 46 layihə üzrə 624.6 min manat güzəştli kreditlər verilmişdir. Cari ilin ötən dövrü ərzində əhalinin banklardakı əmanətləri 2064.8 min manat və 180.0 min ABŞ dolları həcmində olmuşdur, bütövlükdə rayon əhalisinin əmanətlərinin həcmi 2370 min manat civarındadır. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 1121min manat və ya təxminən 2 dəfə çoxdur.

2017-ci ilin 9 ayı ərzində 835 nəfər işaxtaran kimi rayon Məşğulluq Mərkəzində qeydiyyata alınmış və 322 nəfər işlə təmin edilmişdir. Ötən dövr ərzində 31 nəfərə işsiz statusu verilmiş və işsizlik müavinəti təyin edilmişdir. Hazırda Məşğulluq Mərkəzində 299 vakant iş yerləri mövcuddur.

Statistik göstəricilərə görə bu ilin 9 ayı ərzində rayonda miqrasiya artımı müsbət saldo ilə nəticələnmiş (gələnlər 92, gedənlər 50, artım +42), təbii artım 457 (doğulanlar 937, ölənlər 480), rəsmi qeydiyyata alınan nigahların sayı 345, boşanmaların sayı (75) bu göstəricinin 21.7 faizini təşkil edir.

Ölkə iqtisadiyyatında xüsusi çəkisi olan kənd təsərrüfatının əsas strateji hədəfi əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsinə xidmət edir. Aparılan aqrar islahatlar kənd təsərrüfatında yeni münasibətlərin formalaşmasına və nəticədə məhsul istehsalının artmasına səbəb olmuşdur. Bu il Ağstafa rayonu üzrə cəmi 30883 ton taxıl istehsal olunmuşdur və hər hektardan 30.0 sentner məhsul götürülmüşdür. İstehsal olunan taxılın 26373 tonu buğda, 4510 tonunu arpa məhsulu təşkil edir. Rayon üzrə müxtəlif növ kənd təsərrüfatı məhsullarının istehsalı davam etdirilir, bu günə kimi 2610 ton bostan məhsulu, 15450 ton kartof, 479 ton soğan, 6056 ton tərəvəz, 2619 ton günəbaxan, 3345 ton qarğıdalı istehsal olunmuşdur. Nəzərinizə çatdırım ki, kənd təsərrüfatı məhsullarının əkilib becərilməsində 19776 nəfər məşğul olmuşdur. Cari ilin yanvar-sentyabr ayları ərzində rayon üzrə kənd təsərrüfatı məhsullarının həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 371.0 min manat artmışdır. Bu dövlət tərəfindən fermerlərə verilən dəstək, subsidiya, texnika təminatı nəticəsində əldə olunmuşdur. "Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına, buğda və çəltik əkininə görə dövlət büdcəsinin vəsaiti hesabına yardımların verilməsi Qaydaları"na uyğun olaraq 2017-ci ildə Ağstafa rayonu üzrə 9824 istehsalçıya 1123833 manat subsidiya verilməsi həyata keçirilmişdir. Rayonda payızlıq və yazlıq bitkilərin əkilib-səpilməsində "Ağstafa Aqroservis" MMC-nin 67 ədəd və "Aqrolizinq" ASC-nin Ağstafa Aqroservis xidmətinin 72 ədəd müasir kənd təsərrüfatı texnikasından istifadə olunmuşdur. Bu da rayonda aqrotexniki xidmətlərin müasir standartlara uyğun qurulmasına, məhsuldarlığın artırılması və torpaq ehtiyatlarından daha səmərəli istifadəyə imkan yaradır.

Azərbaycan Respublikasında şəkər çuğunduru istehsalının stimullaşdırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanına uyğun olaraq rayonumuzda 500 hektar şəkər çuğunduru əkilmişdir. Hazırda becərmə işləri davam etdirilir, yaxın günlərdə məhsul yığımına başlanılması nəzərdə tutulur.

2017-ci ilin doqquz ayı ərzində Ağstafaçay dəryaçasında kifayət qədər su ehtiyatı yığılmadığından suvarma suyu ilə təminatda müəyyən problemlər yaranmışdır. Hazırda su anbarında 15.0 milyon kub metr suvarma suyu mövcuddur. Ağstafaçay Hidroqovşaq İstismar İdarəsi tərəfindən cari ilin 9 ayı ərzində 9 ədəd selötürən, 3 ədəd suayırıcı qurğular, 2 ədəd dükker və 20 ədəd hidrotexniki qurğular, 9 ədəd hidropostlar, 18.4 km beton kanallar cari və əsaslı təmir edilmiş, eləcə də kanallarda lildən və kolkosdan təmizlənmə işləri aparılmışdır. Sağ sahil kanalında mütəmadi təmir işləri aparılsa da, kanalın beton üzlüyündə çatlar əmələ gəldiyinə görə su itkisinə yol verilir. Kanalın kəndlərdən keçən hissələrində qanunsuz zibilxanaların olması və həmin zibilin daşınmaması sonda kanala tökülməsinə səbəb olur və xoşagəlməz hallar yaradır.

Ağstafa Suvarma Sistemləri İdarəsi tərəfindən 2017-ci ilin doqquz ayı ərzində R-5 kanalında əsaslı təmir və kanalda səviyyəqaldırıcı qurğular əsaslı təmir olunmuş, 15 ədəd hidrotexniki qurğu, 6 ədəd hidropost və 5.1 km kanalda cari təmir, kanalların lildən və kol-kosdan təmizlənməsi həyata keçirilmişdir. 2017-ci ilin mövsümü suvarmasına mart ayının ortalarından dənli bitkilərin suvarılması ilə başlanılmışdır. Çaylarda olan daşqınların əmələ gətirdiyi fəsadlar qısa müddətdə aradan qaldırılmışdır. Ötən dövrdə təsərrüfatlara tələbata uyğun suvarma suyunun verilməsində və bitkilərin suvarılmasında çətinlik yaranmışdır. Kəndlərə ötürülən mövcud suvarma suyundan daha səmərəli istifadə üçün tədbirlər görülür. Kəndlərin içərisindən keçən arx və kanallara əhali tərəfindən müxtəlif məişət tullantılarının atılması səbəbindən kanalların axıcılıq qabiliyyətini azaldır və nəticədə suvarma suyunda narazılıqlara səbəb olur. Əhali tərəfindən kanalların kənarlarının zəbt olunması səbəbindən maşın və mexanizmlərin təmizləmə işlərinin aparılmasına çətinliklər yaradır. Göstərilən nöqsanların aradan qaldırılması üçün texirəsalınmaz tədbirlər görülməlidir.

Tovuz Subartezian Quyularının İstismarı İdarəsininin Ağstafa İstismar sahəsi 226 ədəd subartezian quyusunun istismarına xidmət edir. İlin 9 ayı ərzində 47 ədəd subartezian quyusunda cari, 68 ədəd subartezian quyusunda əsaslı təmir işləri aparılıb. Mövcud subartezian quyuları vasitəsilə 3554 hektar əkin sahələrinin suvarılması həyata keçirilmişdir.

Ağstafa rayon Baytarlıq idarəsi tərəfindən rayon ərazisində mövcud olan bütün növ kənd təsərrüfatı heyvanları və quşları arasında müalicə və profilaktik tədbirləri həyata keçirilmiş və heç bir yoluxucu xəstəliklər qeydə alınmamışdır. Rayon ərazisində kəsilən iri və xırda buynuzlu heyvanların baytar-sanitariya qaydalarına uyğun aparılmasına zəif nəzarət olunur, şəhərin ayrı-ayrı yerlərində, yol kənarlarında, ən çox rast gəldiyimiz Dağ Kəsəmən kəndi ərazisində heyvanların harada gəldi kəsildiyinin şahidi oluruq. Bu cür hallar rayon Baytarlıq idarəsinin rəhbərliyini ciddi düşündürməlidir.

Meşə Mühafizə və Bərpası Müəssisəsi tərəfindən 2017-ci ilin 9 ayı ərzində 15 ha sahədə badam, 7.5 ha ərik, 5.7 ha gilas, 2.8 ha sahədə gilanar, 4 ha sahədə gavalı cinsindən ibarət 35.0 ha sahədə meyvə bağı salınaraq ümumilikdə 16750 ədəd ting əkilmişdir. Meşələrin qorunması və mühafizəsi işi təşkil olunmasına baxmayaraq, Meşə Mühafizə və Bərpası Müəssisəsində və Qarayazı Dövlət Təbiət Qoruğunda ağacların qanunsuz kəsilməsinə az da olsa rast gəlmək olur. Bakı-Qazax avtomobil yolunun rayon ərazisindən keçən hissəsində ötən dövr ərzində 5 mindən artıq müxtəlif növ ağac tingləri əkilmişdir.

2017-ci ilin 9 ayı ərzində rayonda ictimai təşkilatlar, siyasi partiyalarla və kütləvi informasiya vasitələri ilə iş qanunauyğun tənzimlənmiş və dini tolerantlıq təmin olunmuşdur.

Təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsi ilə yanaşı tədrisin səviyyəsinin artırılması, eləcə də müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsinin keçirilməsinin təmin edilməsi istiqamətində rayon Təhsil Şöbəsi üzərinə düşən vəzifələrin icrasına çalışmışdır. "Dövlət ümumi təhsil müəssisələrində bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin dərs yükünün və əmək haqqının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamına müvafiq olaraq Ağstafa rayonu üzrə qiymətləndirmədə iştirak edənlərin hamısı məqbul nəticə göstərmişdir. Cari tədris ilində rayon məktəblərinin buraxılış siniflərində təhsil alan şagirdlərin imtahanlarda iştirak etməsi və onlara attestatların verilməsi sahəsində zəruri tədbirlər görülmüşdür. Bu il ilk dəfə təhsildə fərqlənən şagirdlərə fərqlənmə atestatı verilmiş və rayon üzrə 27 şagird fərqlənmə atestatına layiq görülmüşdür.

Rayonda təhsilin infrastrukturunun daha da yaxşılaşdırılması istiqamətində ciddi işlər aparılır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı 21.10.2016-cı il tarixli Sərəncamına uyğun olaraq 1320 şagird yerlik Ağ-

# müvəffəqiyyətlə yerinə yetirildi

stafa şəhər 3 saylı tam orta məktəbin əsaslı təmiri işləri həyata keçirilir. Köhnəqışlaq kənd tam orta məktəbi üçün 108 yerlik yeni məktəb binasının və Kolayır kəndində 20 şagird yerlik modul tipli ibtidai məktəb binasının tikintisi işləri başa çatdırılmışdır.

Səhiyyə sahəsində dövlət siyasətinin başlıca məqsədi əhalinin sağlamlığının yaxşılaşdırılmasından, orta ömür müddətinin uzadılmasından, əhalinin bütün təbəqələrinin keyfiyyətli tibbi xidmətlə təmin edilməsindən ibarətdir. Əhalinin sağlamlığının qorunmasına dair dövlət siyasətinin həyata keçirilməsinin təmin edilməsi və movcud olan tibb məntəqələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədi ilə Ağstafa Rayon Mərkəzi Xəstəxanası tərəfindən bir sıra tədbirlər həyata keçirilmişdir. 2017-ci ilin 9 ayı ərzində 2349 nəfər ilkin xəstə dispanser qeydiyyatına götürülmüşdür. Hazırda 6986 nəfər dispanser qeydiyyatında saxlanılır. Rayon üzrə 163 nəfər şəkərli diabet, 27 vərəmli, 87 onkoloji, 9 xroniki böyrək çatışmamazlığı xəstələr həkimlər tərəfindən ilkin aşkar olunaraq qeydiyyata götürülmüş və mütəmadi olaraq pulsuz dərmanla təmin edilmişdir. Respublika Prezidentinin ölkə vətəndaşlarının tibbi müayinədən keçirilməsi barədə tapşırığının icrası ilə əlaqədar Ağstafa rayon əhalisinin tibbi müayinədən keçirilməsi həyata keçirilmişdir. Rayonun Saloğlu qəsəbəsində yeni tibb məntəqəsi tikilib istifadəyə verilmiş və inventar avadanlıqlarla təchiz olunmuşdur. Rayon Mərkəzi Xəstəxanası tərəfindən tibb müəssisələrinin vəziyyəti bir daha araşdırılmalı, tələbat və ehtiyacları müəyyənləşdirilməli, onların madditexniki bazasının gücləndirilməsi və mövcud nöqsanların aradan qaldırılması istiqamətində konkret tədbirlər həyata keçirilməlidir.

Ağstafa rayon GEM-də ötən 9 ay ərzində müayinə zamanı 37 vərəm, 1040 yuxarı tənəffüs yollarının kəskin infeksiyası, 4 brüselloz, 5 hepatit C qeydə alınmışdır. Qeyd olunmuş infeksion xəstələrin evlərində yekunlaşdırıcı dezinfeksiya işləri və ocaqlarda kantaktlar üzərində nəzarət aparılmışdır. Rayonda sanitar təmizliyə riayət olunması, küçə ticarətinin qarşısının alınması, infeksion xəstəliklərin yaranma mənbələrinin profilaktikası və istehlak vaxtı keçmiş ərzaq məhsullarının satışdan çıxarılması sahəsində ardıcıl tədbirlər həyata keçirilməlidir.

Hasabat dövründə Ağstafa Regional Mədəniyyət və Turizm İdarəsi tərəfindən bir çox mədəni-kütləvi tədbirlər keçirilmiş, əlamətdar günlər qeyd olunmuşdur. "Milli musiqi günü" və " Beynəlxalq Turizm günü" ilə əlaqədar olaraq konsert proqramları təşkil olunmuşdur.



Lakin qeyd etmək lazımdır ki, yeniyetmə və gənclərin kənd mədəni-maarif müəssisələrində fəaliyyət göstərən dərnəklərə cəlb olunması, istedadlı və yaradıcı gənclərin aşkar olunması, onların yaradıcılığının inkişaf etdirilməsi məqsədi ilə mövcud imkanlardan istifadə edilməlidir. Bu kimi halların aradan qaldırılması üçün Ağstafa Regional Mədəniyyət və Turizm İdarəsi təxirəsalınmaz tədbirlər həyata keçirməli, kənd mədəniyyət müəssisələrinin işində dönüş yaratmalı, əhaliyə göstərilən mədəni xidmət işini günün tələbləri səviyyəsində qurmaq üçün mövcud imkanlardan istifadə etməli və əlavə tədbirlər görməlidir.

Ağstafa rayon Gənclər və İdman İdarəsi tərəfindən gənclərdə vətənpərvərlik tərbiyəsinin, milli mənəvi dəyərlərin təbliği işinin gücləndirilməsi, gənclər arasında hüquq pozuntuları, narkomanlıq və QİCS-in yayılması kimi mənfi halların profilaktikası, rayon gənclərinin məşğulluğunun təmin edilməsi və sahibkarlıq fəaliyyətinin dəstəklənməsi sahəsindəki təbliğat və maarifləndirmə işi aparılmışdır.

Yeniyetmə və gənclər arasında vətənpərvərlik tərbiyəsi işinin yüksəldilməsi, vətənə məhəbbət hissinin aşılanması məqsədilə tədbirlərin keçirilməsi işində Gənclər və İdman İdarəsi məsuliyyətini artırmalı və gənclər arasında mədəni kütləvi tədbirlərin keçirilməsi üçün əlavə tədbirlər görməlidir.

Ağstafa rayonunda abadlıq-quruculuq və təmir-tikinti sahəsində sürətli inkişaf təmin edilmişdir. Ağstafa şəhərinin abadlaşdırılması küçə və meydanların yenidən qurulması çoxmənzilli yaşayış binalarının təmiri işləri ön plana çəkilmişdir.

Dövlət mənzili fondunun qorunub saxlanılması, mənzillərin, çoxmənzilli yaşayış binalarının istismarının uzun müddətli olmasını təmin etmək məqsədilə təmir işləri vaxtında aparılmalı, binaların yükdaşıyan konstruksiyalarının zədələnməsinə yol verilməməlidir. Bu məqsədlə nəzərdə tutulan işlərin keyfiyyətlə həyata keçirilməsində Memarlıq və tikinti şöbəsinin üzərinə böyük vəzifələr düşür.

Rayon mərkəzinin abadlaşdırılması ilə yanaşı rayonun qəsəbə və kəndlərində də abadlıq, tikinti-quruculuq işləri genişləndirilməlidir. Bu sahədə yerli icra nümayəndəlikləri ilə bələdiyyə orqanlarının üzərinə böyük vəzifələr düşür. Nümayəndəliklər və yerli bələdiyyələr əhali ilə daha yaxından əməkdaşlıq etməli, onların sosial problemlərinin həllində yaxından iştirak etməli, bu məqsədlə maliyyə mənbələri axtarmalı, sosial problemlərin həllində əhalinin gücündən istifadə olunmasına çalışmalıdırlar. Ötən dövr ərzində nümayəndəliklər tərəfindən 35.6 km suvarma arxları təmizlənmiş, 33.9 km yollar xırlanmış, 141 ədəd elektrik dayaqları yenisi ilə əvəz edilmiş, 20 ədəd subartezian quyusu təmir olunmuş, 21 su keçidi salınmış, 6 elektrik transformatoru təmir olunmuş, 800 metr uzunluğunda içməli su xətti təmir edilmişdir. Qırılı və Aşağı Kəsəmən kənd qəbiristanlığının ətrafına metal tor çəkilmişdir.

Kənd və qəsəbələrdə əhali içməli su məqsədi ilə suvarma üçün qazılmış subartezian quyulardan istifadə edir. Kür çayının solsahil 11 yaşayış məntəqəsində həyətlərdə qazılmış su quyularından istifadə olunur. Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən Ağgöl, Qarayazı və Köçvəlili kəndlərinin içməli su təminatının yaxşılaşdırılması nəzərdə tutulmuş, ilkin olaraq mütəxəssislər tərəfindən əraziyə baxış keçirilmiş və layihələndirmə işlərinə başlanılmışdır. Mövcud subartezian quyuları üzərində təmizləyici qurğuların quraşdırılması məqsədi ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinə müraciət edilmiş və Ağgöl, Sadıqlı, Muğanlı, Böyük Kəsik, Aşağı Göycəli və Qarahəsənli kəndlərində modul tipli su təmizləyici qurğuların quraşdırılmasının növbəti illərdə nəzərdə tutulduğu barədə məlumat alınmışdır. Ağstafa şəhərinin yeni içməli su şəbəkəsi istifadəyə verildikdən sonra şəhəri içməli su ilə təmin edən əvvəlki içməli su mənbəyi və daşıyıcı su xətlərinin köməkliyi ilə həmin su mənbəyinə yaxın Eynallı, Köçəsgər, Həsənsu kəndlərini və Vurğun qəsəbəsini içməli su ilə təmin etmək mümkündür. Bu barədə Nazirlər Kabinetinə və digər orqanlara müraciət edilmişdir.

Əhalinin elektrik enerjisi ilə təminatında hesabat dövründə bir sıra işlər görülmüş, sıradan çıxmış 48 ədəd müxtəlif gücə malik transformatorlar bərpa edilmiş 10, 6 və 04 kv elektrik xətlərində cari təmir işləri aparılmış, çürük dayaqlar yenisi ilə əvəz edilmişdir. Vurğun qəsəbə, Həsənsu, Dağ Kəsəmən və Zəlimxan kəndlərində 0.4 kv hava xəttində 4.1 km yeni SİP xətti çəkilmiş, 77 ədəd dayaq yenisi ilə əvəz olunmuşdur. Son on ildə salınmış məhəllələrin elektrik enerjisi ilə təminatı aşağı səviyyədədir. Cari ildə yeni məhəllələrin elektrikləşdirilməsi, möcud elektrik təsərrüfatının hissə-hissə rekonstruksiya edilməsi, şəhər mərkəzindəki 110/35/10 kV elektrik yarımstansiyasının kənara köçürülməsi üçün tədbirlər görülməlidir.

Əhalinin təbii qaz yanacağı ilə təmin edilməsində müəyyən işlər görülsə də problemlər də mövcuddur. Rayonun Ağgöl və Böyük Kəsik yaşayış məntəqələrinin qazlaşdırılması həllə də həll olunmamış qalır. Sadıqlı kəndinin qazlaşdırılması işləri başa çatdırılsa da əhali təbii qaz yanacağı ilə tam təmin edilməmişdir. Dağ Kəsəmən kəndinin yeni yaşayış məhəlləsinin qazlaşdırılması problem olaraq qalır. Ağstafa şəhəri də daxil olmaqla əhalinin gücü ilə qazlaşdırılmış yaşayış məntəqələrinin qaz şəbəkələrinin layihə əsasında yenidən qurulmasına və qazın bərabər təzyiqdə paylanılmasına ehtiyac vardır. Qeyd olunan problemin həlli ilə bağlı aidiyyəti üzrə müraciətlər edilmişdir. Dəfələrlə müraciətlər edilməsinə baxmayaraq rayonun Ermənistanla təmas xəttində yerləşən Köhnəqışlaq, Yaradullu, Tatlı və Göycəli kəndlərinin qaz təchizatındakı problemlər hələ də tam aradan qaldırılmamışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrlə yanaşı, nəqliyyat-yol kompleksində, eləcə də yol təsərrüfatında sistemli və kompleks tədbirlər həyata keçirilir. Son illər Ağstafa rayonunda yol infarstrukturunun əsaslı, yenidən qurulması uğurla icra olunur. Əsaslı şəkildə yenidən qurulan Vurğun, Həsənsu, Qırılı, Eynallı və Köçəsgər kəndlərini Ağstafa şəhəri ilə əlaqələndirən uzunluğu 15,5 km olan Ağstafa-Köçəsgər avtomobil yolunda əsaslı yenidənqurma işləri başa çatdırılmışdır. Vurğun, Göycəli, Tatlı, Yaradullu və Köhnəqışlaq kəndlərini rayon mərkəzi ilə əlaqələndirən uzunluğu 24 km olan Vurğun-Köhnəqışlaq avtomobil yolunun yenidən qurulması işləri davam etdirilir. 9,5 km uzunluğunda Köçvəlili-Qarayazı avtomobil yolunun əsaslı surətdə yenidənqurulması başa çatsdırılmışdır. 9.5 km uzunluğunda olan Ağstafa-Aşağı Kəsəmən-Zəlimxan-Poylu avtomobil yolunun tikintisi həyata keçirilir.

Ağstafa rayonu ərazisində əhalinin rahat və təhlükəsiz gediş-gəlişini təmin etmək məqsədilə 4 körpünün tikintisi, Ağstafa-Poylu-Gürcüstan dövlət sərhədi avtomobil yolunda 3, Ağstafa-Poylu-Düzqışlaq-Qazax yerli avtomobil yolunun üzərində isə 1 körpünün inşası başa çatdırılmışdır. Layihə çərçivəsində dəmir yolu, Ağstafaçay və Acıdərəçay üzərindəki körpülər sökülüb, Kür çayı üzərindəki körpü isə tarixi əhəmiyyəti nəzərə alınaraq saxlanılmışdır.

Ağstafa 27 saylı Yol İstismar İdarəsi balansında olan yolların saxlanılması, istismarının normal təşkili, yol nişanlarının, siqnal dirəklərinin bərpası, təmizlənməsi sahəsində tədbirlər görməlidir. Avtomobil yollarında hərəkəti istiqamətləndirən yol dairələrində qəza hallarının qarşısının alınması məqsədi ilə əks etdirən vinil yol nişanlarının quraşdırılması təmin edilməlidir.

2017-ci ilin ötən dövrü ərzində rabitə sisteminin yaxşılaşdırılması sahəsində bir sıra addımlar atılmış, internet istifadəçilərinin sayı artırılmışdır. Rayonun Dağ Kəsəmən, Tatlı və Həsənsu kəndlərində internet istifadəçilərinin sayının artırılması üçün yeni avadanlıqlar qoyulmuş internet istifadəçilərinin sayı 1080 nəfərə çatdırılmış, Eynallı kəndində yeni məhəlləyə xətt çəkilərək 16 abonentə telefon və internet verilmişdir. Dağ Kəsəmən kəndində EATS-in montaj tutumu artırılmış və abonentlərin istifadəsinə verilmişdir. 125 abonentə internet verilmişdir. Təbii fəlakət törədə biləcək hadisələrin qarşısının alınması məqsədi ilə ilin əvvəlində sel sularının, uçqunların və qrunt sularının qarşısının alınması məqsədi ilə aidiyyəti qurumlar qarşısında məsələ qaldırılmışdır. Uzun illər sel sularından əziyyət çəkən Dağ Kəsəmən kəndində təhlükənin qarşısının alınması məqsədi ilə mühafizə bəndlərinin tikintisinə başlanılmışdır. Həmin tikintinin başa çatdırılması üçün tədbirlər görülməlidir. Saloğlu, Köçəsgər kəndlərində uçqunların qarşısının alınması, Tatlı kəndində qurunt sularının aradan qaldırılması üçün yeraltı və yerüstü drenaj şəbəkələrinin tikintisinə nail olunmalı, rayon ərazisindən keçən Həsənsu, Ağstafaçay və Kür çaylarında sahilbərkitmə işləri davam etdirilməlidir.

Rayonun çoxmənzilli yaşayış binalarının, məktəb və bağçaların istilik sistemi ilə təchizatı sahəsində ötən il müəyyən işlər görülsə də cari ildə həlli vacib olan problemlər təhlil edilməli və aradan qaldırılmalıdır.

2017-ci ilin yanvar-sentyabr ayları ərzində Ağstafa rayonu İcra hakimiyyəti başçısının aparatına vətəndaşların 564 müraciəti daxil olmuş, rayon İcra hakimiyyəti tərəfindən 4880 nəfər vətəndaş qəbul edilmiş, yerlərdə 34 səyyar qəbulları keçirilmiş, həmin görüşlərdə 3966 nəfər iştirak etmiş, 344 təklif irəli sürülmüşdür. Qaldırılan problem və təkliflərin 164-ü həll olunmuş, 80-nin icrası davam etdirilir, 100 təklifin icrası növbəti aylarda nəzərdə tutulur.

* * *

Məruzə yığıncaqda geniş müzakirə olundu və qərar qəbul edildi.

# Cari dərs ili keyfiyyət ilidir

2017-2018-ci dərs ilinin "Ümumi təhsildə keyfiyyət ili" elan edilməsi barədə" Azərbaycan Respublikası Təhsil Nazirliyinin 28.08.2017- ci il tarixli 261 nömrəli əmrinin və "Təhsildə keyfiyyət ili" çərçivəsində nəzərdə tutulan tədbirlərin icrası ilə bağlı Təhsil Nazirliyinin Fəaliyyət planının icrası ilə əlaqədar maarifləndirmə işləri aparılmışdır.

Maarifləndirmə işləri çərçivəsində təhsil işçilərinin sentyabr konfransının məruzəsi hazırlanarkən bu məsələyə diqqət yetirilmişdir. Bununla yanaşı sentyabr konfransının bölmə iclaslarında bütün bölmələrdə: fənlər üzrə, direktor, direktor müavinləri, məktəbdənkənar və sinifdənxaric işlər üzrə direktor müavinləri, uşaq birliyi təşkilatı rəhbərləri, məktəb psixoloqları və kitabxanaçıların bölmələrində Azərbaycan Respublikası Təhsil Nazirliyinin əmri və "Təhsildə keyfiyyət ili" çərçivəsində nəzərdə tutulan tədbirlərin məqsəd və mahiyyəti izah olunmuşdur.

Təhsil şöbəsinin növbəti şura iclasında bu əmrin məzmunu məktəb rəhbərlərinə çatdırılmışdır. Şura iclasında məktəb rəhbərlərinə çatdırılmışdır ki, ümumtəhsil məktəblərinin şagirdlərinə dərsliklərin pulsuz verilməsinə, təlim-tərbiyə şəraitinin yaxşılaşdırılmasına, növbəliliyin əsaslı şəkildə azaldılmasına xidmət edən yeni məktəb binalarının inşası, maddi və mənəvi cəhətdən köhnəlmiş məktəblərin əsaslı təmiri və onların müasir avadanlıqlarla, o cümlədən informasiya-kommunikasiya texnologiyaları ilə təchizi, pedaqoji və rəhbər pedaqoji kadrların seçilib yerləşdirilməsində ciddi qayda dəyişikliklərinin edilməsi, müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsində sağlam rəqabətin yaranması və onların əmək haqlarının artırılması ilə nəticələnən diaqnostik qiymətləndirmələrin keçirilməsi, dərs ilinin müddətinin uzadılması, istedadlı şagirdlərin olimpiada hərəkatının gücləndirilməsi, dövlət ümumtəhsil məktəblərində uşaqların məktəbəhazırlıq təhsilinin təşkili, tam orta təhsil səviyyəsində təhsilin təmayülləşməsinin tətbiqi də ümumi təhsilin keyfiyyətinə birbaşa təsir göstərən əhəmiyyətli tədbirlərdəndir.

Son illər Nazirlik tərəfindən ümumtəhsil məktəblərinin şagirdlərinin təlim nailiyyətlərinə nəzarətin gücləndirilməsi sayəsində bölgələrdə ümumi təhsil üzrə keyfiyyət göstəricilərində, xüsusilə də buraxılış imtahanları və ali məktəblərə qəbulun nəticələrində əvvəlki illərlə müqayisədə nəzərəçarpan irəliləyişlər müşahidə edilməkdədir. Bununla belə, o da etiraf olunmalıdır ki, ümumi təhsilin hazırkı keyfiyyət səviyyəsinin davamlı surətdə yaxşılaşdırılması üzrə təsirli tədbirlərin görülməsi ən zəruri vəzifə kimi meydana çıxmışdır . Odur ki, ümumi təhsil sahəsində müasir dövrün çağırışlarına əsaslanmaqla inkişafı şərtləndirən keyfiyyət dəyişikliklərinə nail olmaq və bu prosesdə yerli təhsili idarəetmə orqanlarının, məktəb pedaqoji kollektivlərinin imkanlarını səfərbər etmək məqsədilə 2017-2018- ci dərs ili "Təhsildə keyfiyyət ili" elan olunmuşdur.

Nazirliyin əmri ilə təsdiq edilmiş Fəaliyyət planında nəzərdə tutulan tədbirlərin, habelə "İl" çərçivəsində "Pedaqoji mühazirələrin" keçiriləcəyi haqda məlumatın məktəb rəhbərlərinə elan edilmiş, bunlara uyğun olaraq qarşıda duran vəzifələr müzakirə edilmiş, Fəaliyyət planına uyğun olaraq görüləcək işlər müəyyənləşdirilmişdir.

Təhsil Nazirliyin əmri əlavələrlə birlikdə çoxaldılmış, məktəb rəhbərlərinə çatdırılmışdır. Onu da qeyd etməliyəm ki, həmin əmr internetə çıxışı olan 25 ümumtəhsil məktəbinə həm də elektron variantda göndərilmişdir.

Rayonun məktəblərinin pedaqoji şuralarında Nazirliyin əmri müzakirə edilmiş, pedaqoji işçilərə çatdırılmışdır.

Fəaliyyət planından irəli gələn məsələlərlə bağlı təhsil şöbəsində müvafiq əmr verilmiş, həmin əmrlə fəaliyyət planı təsdiq edilmişdir. Hər bir məktəbdə tədbirlər planının hazırlanıb təsdiq olunması təmin edilmişdir.

***İmran Nəsibov,***
***RTŞ-də Metodkabinet müdiri.***

# Fəxri dəmiryolçu



Peşəsinin vurğunu olan hər bir şəxs heç nədən asılı olmadan şərəfli ömür keçir. Həyat belə insanları çətin sınaqlara çəksə belə onlar həmişə özlərini doğrultmuş, el arasında böyük hörmət, nüfuz sahibi olmuşlar. Belə əmək adamlarından biri də ömrünün çox hissəsini Ağstafa şəhərində yaşamış Hidayət Mustafa oğlu Sadıqovdu.

Hidayət Sadıqovu ağstafalılar sadəcə olaraq dəmiryolçu kimi tanıyırlar. Onun atası Mustafa Sadıqov da uzun illər dəmir yolunda çalışmış, ad-san qazanmışdır. Hidayət Sadıqovun dediyinə görə onda bu sənətə olan məhəbbəti atası Mustafa kişi yaratmışdı. Heç də təsadüfü deyildi ki, Hidayət Sadıqov düz 62 il dəmir yolunda çalışmış və bu illərdə öz bacarığı, qabiliyyəti, səmimiyyəti ilə işlədiyi kollektivdə böyük hörmət qazanmışdı. Gənc dəmiryolçu öz fədakar əməyinə görə həmişə rəhbərlik tərəfindən dəfələrlə yüksək mükafatlar almış, fəxri fərmanlara layiq görülmüşdür. Keçən əsrin sonlarında Hidayət Sadıqova "Əmək igidliyinə görə" medalı verilmiş, "Fəxri Dəmiryolçu" adını almışdır.

Hidayət Sadıqov bu gün təqaüdçü olsa da ağstafalılar onu tez-tez dəmiryolçulara məxsus geyimdə görür, ona böyük hörmətlə yanaşırlar. Veteran dəmiryolçu rayonda keçirilən kütləvi tədbirlərdə fəal iştirak edir, əmək, müharibə veteranları ilə ön sırada dayanır.

Bu günlər, daha doğrusu oktyabr ayının 13-də respublikamızın dəmiryolçuları öz peşə bayramlarını qeyd etdilər. Həmin gün Hidayət Sadıqov da öz köhnə iş yoldaşları ilə, veteranlarla şəhərimizin mərkəzindəki S.Vurğun adına mədəniyyət və istirahət parkında bir yerə toplaşmış, çay süfrəsi arxasında əyləşib ötən illəri xatırlamış, onları dinləyən gənc nəslin nümayəndələrinə öz tövsiyələrini vermişlər.

Hörmətli Hidayət Sadıqov, Ağstafa qəzetinin əməkdaşları adından, oxucularımız adından sizi və bütün dəmiryolçuları peşə bayramınız münasibətilə ürəkdən təbrik edir, sizə can sağlığı arzulayırıq.

***İ.Əliyev***

# Gərgin zəhmətin bəhrəsi

**Şəhərimizdəki 1 saylı tam orta məktəb qabaqcıl təhsil ocaqlarından sayılır. Gənc nəslin təlim-tərbiyəsi ilə ciddi məşğul olmaq üçün pedaqoji kollektiv əlindən gələni əsirgəmir. Bu fikirlər işığında əlbir fəaliyyət öz bəhrəsini verir. Bilik və savad aşılayan müəllimlərin adı yaxşılığa çəkilir, tanınır, şagirdlərin sevimlisinə çevrilir və nəhayət tarixə düşürlər.**



Doğma işinə bu gün də ürəklə, hörmətlə yanaşan pedaqoqlar vardır. Onlardan biri də Aygün Babayevadır. Sadə və səmimi davranışı ilə kollektivdə seçilib sayılan müəllimədir. Bacarıqlı riyaziyyatçı kimi özünü şagirdlərinə sevdirə bilmişdir. Bu keyfiyyətinə görə dərsdən sonra əlavə bilik almaq istəyən şagirdlər ona müraciət edirlər. Zəhməti hədər getmir. Neçə-neçə müdavim ali məktəb tələbəsi adına yiyələnə bilmişdir.

Aygün müəllimə 1984-cü ildə Ş.Şükürova adına 24 saylı (indiki 3 saylı) dəmiryol orta məktəbini bitirmişdir. Məhz həmin ildə Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsinə eksperiment yolu ilə 2 imtahanla qəbul olunmuşdur. Bundan sonra əsil tələbə həyatı başlanmışdır: zəhmətlə keçən günlər, yuxusuz keçən gecələr. Belə-belə illər bir-birni əvəz etdikcə mənimsəmə də səmərəli oldu. Beləliklə nəticə fərqlənmə dipomu ilə yekunlaşdı.

- Mən bunun üçün keçmiş müəllimlərimə borcluyam-deyə müəllimə söhbət arasında fikrini bildirdi. - Əyyam müəllimə, Nəzakət müəlliməyə ömrüm boyu minnətdaram. Hər ikisinə Allah rəhmət eləsin. Onların sayəsində peşəmə vurğunam. Sakit İsmayılovun da Allah canına sağlıq versin. Onun da zəhməti hədsizdir. Bütün uğurlarımı onların adı ilə bağlayıram.

Riyaziyyatçı müəllimənin ilk iş yeri təyinatla Şəmkir rayonunun Engelskənd orta məktəbi olub. Sonra doğma rayonu Ağstafaya qayıdıb. Əvvəlcə Vurğun qəsəbəsində, sona isə şəhərdəki 1 saylı tam orta məktəbdə riyaziyyatdan dərs deməyini davam etdirib. İşlədiyi müddət ərzində qüsursuz fəaliyyətə görə rayon ica hakimiyyəti tərəfindən fəxri fərmanlarla təltif edilmişdir. Təhsil Nazirliyi də bu məzmunda onun əməyini qiymətləndirmişdir.

Həmsöhbətimin ən uğurlu ili isə məhz bu il-2017-ci il olmuşdur. Müəllim günü münasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev imzaladığı sərəncamla onu "Tərəqqi" medalı ilə təltif etmişdir. Bu, zəhmətkeş insana göstərilən diqqət və qayğıdır. Bu, həm də 1 saylı tam orta məktəbin fəaliyyətnə verilən qiymətdir. Arzu edirik ki, belə qiymətlərin sayı daha çox olsun.

***Qəhrəman Qurbanov.***

# Müəllimlərin əməyi yüksək qiymətləndirildi

***Gənc nəslin təlim-tərbiyəsində əvəzsiz xidmətləri olan peşə sahiblərindən biri də müəllimdir. Hələ uzun illər bundan öncə Ulu öndər Heydər Əliyev müəllimlərin peşəsini yüksək qiymətləndirmiş və demişdir ki, mən müəllim adından uca şərəfli ad tanımıram.***

Bəli, biz gündəlik həyatımızda bütün bunların şahidi olur və görürük ki, şərəfli peşə sahiblərinin əməyinə möhtərəm prezidentimiz cənab İlham Əliyev tərəfindən də yüksək qiymət verilir. Bu günlər ölkə başçısının sərəncamı ilə respublikamızın bir qrup müəlliminə yüksək mükafatlar verilmişdir. Onların arasında Ağstafa şəhər 1 saylı tam orta məktəbin riyaziyyat müəllimi Aygün Babayeva da vardır. Ölkə başçısının sərəncamı ilə Aygün Babayevaya "Tərəqqi medalı"verilmişdir.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin müvafiq əmri ilə Kolxəlfəli kənd tam orta məktəbin direktoru Arifə İbrahimova "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" döş nişanı ilə, Ağstafa şəhər 2 saylı tam orta məktəbin direktor müavini Sədi Quliyev və həmin məktəbin tarix müəllimi Afaq Rəhimova Azərbaycan Respublikası Təhsil Nazirliyinin Fəxri Fərmanı ilə təltif olunmuşlar. Bu yüksək mükafat almaları münasibətilə sevimli müəllimlərimizi qəzetimizin oxucuları və bütün ağstafalılar adından ürəkdən təbrik edirik.

## Elan

***Daxili İşlər Naziri general-polkovnik cənab Ramil Usubov tərəfindən cari ilin oktyabr ayının 28-də Gəncə şəhərində bölgə üzrə vətəndaşların qəbulunun keçirilməsi nəzərdə tutulmuşdur.***

***Vətəndaşların Daxili İşlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı Ağstafa RPŞ-nə müraciət etməklə qəbula yazıla bilərlər.***

***Əlavə məlumat almaq üçün (050-358-09-49), (055-331-79-01) nömrələrinə zəng edə bilərlər.***

## Heç kim unudulmur

# Xəlil müəllimi xatırlayarkən

*Şairlər vətəni bizim tərəflər*
*Tərlanlar oylağı yadıma düşdü...*
**Səməd Vurğun**

**“Müəllim” deyəndə qəlbimdə öz ömrünü şam kimi gilə-gilə əridib şagirdlərinin ömür yollarına səpələyən qayğıkeş , həssas qəlbli bir insan canlanır. Elə bir insan ki, o, bütün xoşbəxtliyini dərs dediyi şagirdlərin ucalığında tapır. Bu gün haqqında söhbət açacağım müəllim də belə insanlardandır. Xəlil Qara oğlu Bayramov.**

O, 1933-cü il Ağstafa rayonunun Qırılı kəndində anadan olub. 1950-1955-ci illərdə H.Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitunun filologiya fakultəsində təhsil almışdır. Təhsil aldığı illərdə oxuduğu ali məktəbin ən dəyərli tələbələrindən biri olmuşdur. Bu ali məktəb Xəlil müəllimin tək gözəl ədəbiyyat müəllimi olmasını deyil, həm də söz, qələm adamı, qələm sahibi kimi formalaşmasına kömək etmişdir.

İnstitutu bitirdikdən sonra Xəlil müəllim təyinatla Kəlbəcər rayonunun Qamışlı kəndinə müəllim göndərilmişdir. 1955-ci ildən 1961-ci ilə kimi orada gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olmuşdur. 1961-ci ildə öz rayonuna qayıtmış, indiki Həsənsu kənd orta məktəbində müəllimlik fəaliyyətini davam etdirmişdir. Bu illərdə Xəlil müəllimin Xalq şairi Hüseyn Ariflə görüşləri, deyişmələri hələ də o dövrün ədəbiyyat adamlarının yaddaşındadır. İstedadlı şairimiz Nüsrət Kəsəmənlinin uşaqlıq illəri də bu məktəbdə Xəlil müəllimin gözləri qarşısında keçmişdir. O, bu böyük müəllimdən çox şeylər öyrənmişdir. Bu illərdə Xəlil müəllimin dövrü mətbuatda (“Azərbaycan gəncləri” “Ulduz” jurnalı, “Qabiliyyət bayrağı”) qəzetlərində şeirləri dərc olunub. Saf məhəbbət, vətən sevgisi onun şeirlərinin əsas leytmotivini təşkil edir:

*Aşiq yaranmışam körpəliyimdən,*
*Baxanda dərdimi duyan gözlərə.*
*Ağrıma yüngüllük, dərdimə dərman,*
*Yarama məlhəmi qoyan gözlərə.*

*Oturam yanaşı, üzüm üzündə,*
*Əllərim əlində, dizim dizində.*
*Axşamdan səhərə gözüm gözündə,*
*Mən olam hər gecə həyan gözlərə.*

*O, bəzən andırır aylı axşamı,*
*Süzgün ala gözdür könül ilhamı.*
*Xəliləm, düşmənəm eşitsin hamı,*
*Gündə birisinə uyan gözlərə.*

Xəlil müəllimin şeirlərini oxuduqca oxucu saflaşır, durulaşır. Sanki insan xəyallar dünyasının qonağı olur. Onun hər sözündə, hər misrasında Vaqif məhəbbəti, Vurğun xəyalı var.

Xəlil müəllimin ustad aşıq Dədə Şəmşirlə deyişməsi xüsusi maraq doğurur. 1958-ci ilin may ayında Qamışlı kəndinin müəllimləri Ceyran bulağının üstündə süfrə açırlar. Xəlil müəllim də onların arasında olur. Təbiətin gül-güllü, bülbül-bülbülü çağıran vaxtıymış. Bu vaxt bir dəstə atlı gəlib bulağın yanında dayanıb su içirlər. Bunlar aşıq Şəmşir və onun dəstəsi imiş. Müəllimlər böyük hörmətlə aşığı süfrəyə dəvət edirlər. Bu məqamda kimsə aşığa deyir ki, o Qazaxdan gələn oğlan da buradadır. Aşıq Şəmşir çox ədəblə Xəlil müəllimlə salamlaşır. Sonra deyir ki, oğlum, eşitmişəm sən də yaxşı uydurursan. ”Xoruz” şeirini oxudum (Xəlil müəllimin bu şeiri maraqlı bir əhvalatla bağlı yazılıb). Ellilərini yaman pərt eləmisən. Gəlsənə, elə indi bu təbiətin qoynunda bir-iki kəlmə deyişək. Xəlil müəllim özünü itirir. O, gənc bir müəllim, Aşıq Şəmşir isə tanınmış bir el aşığı. Xəlil müəllim deyir ki, Dədə Şəmşir, mən səninlə deyişməyə cürət etmərəm. Mən şair deyiləm, hərdən təbim gələndə elə-belə uydururam. Aşıq deyir ki, sən də Qazağın suyunu içmisən, Səməd də. Bilirsənmi ki, mən bu bulağın başında Səmədlə deyişmişəm. İndi səndən bir-iki şey soruşacağam, görüm mənə nə cavab verəcəksən?

**Aşıq Şəmşir**
*Könlüm deyir: et torpağı ziyarət,*
*Çalırmı Qazaxda sazı Vurğunun?*
*Bahar əyyamıdır, yenə yaz gəlib,*
*Olurmu söhbəti, sözü Vurğunun?*

**Xəlil müəllim**
*Ustad, qərinələr gəlib keçsə də,*
*Gedərmi Qazaxdan izi Vurğunun,*
*Qızlar çəmənlərdən çiçək dərəndə*
*Çox olur söhbəti, sözü Vurğunun.*

**Aşıq Şəmşir**
*Vurğun öldü, Vaqif bunu bildimi?*
*Vidadi ah çəkib yasa gəldimi?*
*Səmədi itirən sizin eldimi?*
*Dərdi qocaldıbdır bizi Vurğunun.*

**Xəlil müəllim**
*Dəli dağ ilhamı, Qoşqar vüqarı,*
*Şair çox sevirdi sizin dağları.*
*Heyif, hələ ömrü olmamış yarı,*
*Getdi aramızdan özü Vurğunun.*

**Aşıq Şəmşir**
*Şəmşirəm, şikarım yaralı getdi,*
*Gözü yolda qoydu, maralı getdi.*
*Çərxi-dövran saldı aralı, getdi,*
*Qalırmı Qazaxda izi Vurğunun?*

**Xəlil müəllim**
*Dərdini bölsən Xəlillə yarı,*
*Səmədi yetirib Qazax diyarı.*



*Əziz ata, çəkmə heç intizarı,*
*Yetişir Qazaxda yüzü Vurğunun.*

Bu sözlərdən sonra onlar görüşüb ayrırlırlar. Ancaq aralarında yaranmış isti münasibət, deyişmələr məktub şəklində davam edir. Növbəti yazılarımızda oxucularımıza bu məktublarda yazılmış şeirlərlə bağlı məlumat verəcəyik.

Xəlil müəllimin tək Aşıq Şəmşirlə yox, Şair Bəhmənlə, Azaflı Mikayılla deyişmələri də vardır.

1976-cı ildə Qırılı kənd səkkizillik məktəbi orta məktəb olur. Xəlil Bayramov bu orta məktəbin ilk direktoru təyin olunur. Mən deyərdim ki, Xəlil müəllimin direktorluğu dövründə Qırılı kənd orta məktəbi özünün əsl intibah dövrünü yaşamışdır.

Mən Xəlil müəllimlə bağlı yazı yazmağa hazırlaşarkən çoxlu məlumatlar öyrəndim. Onun bənzərsiz şeirlərinin sehrinə düşdüm. Xüsusilə, müxəmməslər, qəzəllər, təcnislər, qıfılbəndlər məni heyran etdi. Mənə elə gəlir ki Xəlil Bayramov yaradıcılığının geniş şəkildə toplanılmasının, çapa hazırlanmasının artıq vaxtıdır. Bu istənilən bir ədəbiyyat adamının tədqiqat obyekti ola bilər.

Xəlil müəllimin qızı Azadə xanım Qırılı kənd tam orta məktəbində çalışır. Sanki bu xanım qəlbində böyük bir Xəlil Bayramov dastanı yaşadır. Azadə xanim danışdıqca Xəlil Bayramov dastanı yeni-yeni qollara ayrılır... “Mən Xəlil Bayramovun yoldaşı necə xanım olub?” sözünü Azadə xanımdan soruşanda onun gözləri doldu. Sanki bu sual onu anasız dünyasından yenidən analı dünyasına qaytardı. “Anamı” şeirini söyləməklə sözünü bitirdi:

*Onu itirmişəm körpəliyimdən,*
*Hələ də gəzirəm, ellər, anamı.*
*Ya çovğuna düşüb, ya çəndə azıb,*
*Ya da ki uçurub yellər anamı.*

*Atam ocağında bir çiçək idi,*
*Hələ çiçəkdən də o göyçək idi.*
*O bəndə deyildi, o mələk idi,*
*Belə əzizlərdi dillər anamı.*

*Bir kəsə bir acı kəlmə deməzdi,*
*Qəfil ayrılığı heç istəməzdi.*
*Duysa ki, anadır, vallah yeməzdi*
*Pələnglər anamı, şirlər anamı.*

*Yaşı qurumayan gözüm axtarır,*
*Gözümdə qalan yüz arzum axtarır,*
*Nənəsinə bənzər qızım axtarır,*
*Görən qaytararmı sellər anamı?*

*Xəlil qızı quru budaq kimidir,*
*Nənə olub, amma uşaq kimidir,*
*Hər bahar istəkli qonaq kimidir,*
*Öpüb oxşayırlar güllər anamı.*

1986-cı ilin sentyabrında Xəlil Bayramov vəfat etmişdir. Düzüb-qoşduğu, yazıb-yaratdığı, dürlü-dürlü sözləri, dürlü-dürlü misraları qaldı kövrək qəlbimizdə. Gəlin, biz Xəlil müəllim vəfat etdi demiyək, gəlin, biz Xəlil müəllim öz dünyasını dəyişdi demiyək, çünki onun əbədi bir səməti var.



**Qismət Cəfərov,**
**Bakı Dövlət Universitetinin tələbəsi**

---

*Usta Qafar*

## Qardaş

Qismətin olarsa sağalmaz dərdlər,
Dərdini öz dərdi biləndi qardaş,
Üstünə düşsə də dağ qədər kədər,
Kədərin bağrını dələndi qardaş.

Pusquda dayanıb dövrün bəd anı,
Bəzən gürzə kimi çalır insanı,
Bilsə ki, dərdinə məlhəmdi qanı,
Qanını səninlə bölənd qardaş.

Adam var cibləri dollarla dolur,
Adam var yaşamaq ümidi solur,
Görsə ki, gözləri yaş ilə dolur,
Acı göz yaşını siləndi qardaş.

Nə qədər çox olsa dostun, yoldaşın,
Yenə də qardaşsız ucalmaz başın,
Lap aşıb-daşarsa halal daş-qaşın,
Səninlə şadlanıb güləndi qardaş.

Usta, əcəl çatıb olsan can üstə,
Allahdan özünə bir qardaş istə,
Ölsən, gecə-gündüz məzarın üstə,
Günəştək bərq vuran şöləndi qardaş.

*Köçəsgər kəndi.*

*Azər Dədəmoğlu (Mehdixanlı)*

## Nağıla dönən ömür

Aydınlıq bir gecə, qışın bir günü
Zaman an vermədi, verdi hökmünü,
Ay yerə düşmüşdü, söykənib dağa
Bəlkə də gəlmişdi vidalaşmağa.

Yuxuyla aşkarın qarışan çağı,
Olumla ölümün barışan çağı
Çağlayan bir eşqin çırağı keçdi-
Anam ürəyimdən qəlbimə köçdü.

“Balama deməyin gözü dörd olar
Bu da son nəfəsdə mənə dərd olar,”
Bir ana qəlbinin son təlaşları
Desəm yandırmazmı dağı, daşları?!

Həyatda biz kimik hökmran zaman
Nə imdad havayı, nə də ki, aman,
Al-əlvan bir ömrü bürüyüb ağa
Bir ana borcumu verdim torpağa.

Nə tezcə göylərdən üç alma düşdü?-
Hamısı o fələk zalıma düşdü...
Bir qərib taleyin saatı dondu,
Bir ömür beləcə nağıla döndü.

*iyul, 2017*

---

# Payız şumu qaldırılır

Yay günlərində havaların isti keçməsinə baxmayaraq rayonumuzun kənd əməkçiləri minbirzəhmətlə yetişdirdikləri məhsulu itgisiz toplayaraq öz halal zəhmətlərinin bəhrəsini gördülər. Deməli olar ki, kənd təsərrüfatının bütün sahələrində nəzərdə tutulduğundan xeyli çox məhsul tədarük olundu.

Artıq rayonda gələn ilin bol məhsulu uğrunda gərgin işə başlanılmışdır. Bir neçə gündür ki, kənd əməkçilərimiz payızlıq şum qaldırılmasına başlamışlar. Bu il rayonda 10 min hektardan çox sahədə şum qaldırılması nəzərdə tutulmuşdur. Payızlıq şum qaldırılması işini böyük həvəslə başlayan kənd əməkçiləri ötən günlərdə 7 min hektardan çox sahədə payızlıq şum qaldırmışlar. Rayon Kənd Təsərrüfatı idarəsindən redaksiyamıza bildirdilər ki, oktyabr ayının sonunadək bütün kəndlərdə payızlıq şum qaldırılması işi başa çatdırılacaqdır.

# Şəkər çuğunduru yığımına başlanıldı

Cari təsərrüfat ilində rayonun ayrı-ayrı kəndlərində kənd təsərrüfatında ən gəlirli sahələrdən biri olan çuğundur əkilmiş və mövsümün başlanğıcında nəzərdə tutulan bütün işlər yekunlaşdırılmışdır. Yay günlərində havaların isti və quraq keçməsinə baxmayaraq çuğundur əkini sahələrinin vaxtında suvarılmasına böyük diqqət və qayğı göstərilmiş, nəticədə sahələrdə bol məhsul yetişdirilmişdir.

Bir neçə gündür ki, məhsul yığımına başlanılmışdır. Bu il 5 min hektar sahədən çuğundur tədarük olunacaqdır. Pirili kəndində çuğundur yığımına start verilmişdir. İlk nəticələr onu deməyə əsas verir ki, çuğundur əkini ilə məşğul olan kənd əməkçiləri sahələrdən nəzərdə tutulduğundan daha çox məhsul tədarük edəcəklər.

# Karateçilərimizin növbəti qələbəsi

Azərbaycan Milli Karete Federasiyası və Ağstafa rayon Gənclər və İdman idarəsinin təşkilatçılığı ilə bu günlər rayonun Köçəsgər kənd 1 saylı tam orta məktəbinin idman zalında 18 oktyabr Müstəqillik gününə həsr olunmuş uşaq və yeniyetmələr arasında karete-do idman növü üzrə açıq Ağstafa rayon turniri keçirilmişdir. Turnirdə Gəncə, Sumqayıt şəhərlərinin, Ağstafa, Abşeron, Göygöl, Tovuz, Qazax rayonlarının komandaları iştirak etmişlər. Turnirə ümumilikdə 120 nəfər idmançı 13 dəst medal uğrunda mübarizəyə qatılmışdır.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndikdən sonra turniri açıq elan edən Ağstafa rayon Gənclər və İdman idarəsinin baş məsləhətçisi Turan Hüseynov 18 oktyabr Müstəqillik gününün tarixi əhəmiyyətindən, ölkəmizdə idmana və idmançılara göstərilən yüksək dövlət qayğısından danışmışdır.

Açılış mərasimində rayon ictimaiyyətinin nümayəndələri "Ağstafa" qəzetinin baş redaktoru İbrahim Əliyev, veteran idmançı Aydın Tağızadə, şair Saqif Qaratorpaq çıxış edərək idmançılara uğurlar arzulamışlar.

Olduqca maraqlı və gərgin idman mübarizəsi şəraitində keçən turnirdə yekun nəticələrinə əsasən 8-9 yaş qrupunda 25 kiloqram çəkidə Sərdar Yusubov (Ağstafa), 30 kiloqram çəkidə Gəncə idmançısı İsmayıl Çobanov, 35 kiloqram çəkidə Sumqayıt idmançısı Azər Qasımov və həmin çəkidə çıxış edən Göygöl idmançısı Hüseyin Hacızadə, 10-11 yaş qrupunda 30 kiloqram çəkidə yarışan Ağstafa idmançısı Nicat Əsədov, 35 kiloqram çəkidə yarışan Gəncə idmançısı Qamət Məmmədov, 40 kiloqram çəkidə yarışan Gəncə idmançısı Sərxan Qasımov və Ağstafa idmançısı Şaxmar Məmmədov, 12-13 yaş qrupunda yarışan Qazax idmançısı Ayxan Həsənov, 40 kiloqram çəkidə yarışan Gəncə idmançısı Umud Məmmədli, 45 kiloqram çəkidə yarışan Sumqayıt idmançısı Nihat Yusibov, 50 kiloqram çəkidə yarışan Ağstafa və Gəncə idmançıları Əsgər Hüseynov, Ayxan Rzayev turnirin birinci yerlərinə layiq görülmüşlər.

Ümumilikdə birinci yerlərin sayına görə Gəncə idmançılarından beş nəfər, Ağstafa idmançılarından dörd nəfər, Sumqayıt idmançılarından iki nəfər, Qazax və Göygöl idmançılarından hər birindən bir nəfər medala layiq görülmüşlər.

Turnirin sonunda yarış qaliblərinə müvafiq olaraq diplom və medallar təltif olunmuşdur.











# C.İ.Əfəndiyev



Rayon Müharibə Veteranları Şurasının sədri Cavanşir İbad oğlu Əfəndiyev oktyabr ayının 11-də 94 yaşında vəfat etmişdir.

Cavanşir İbad oğlu Əfəndiyev 1922-ci ildə Qazax rayonunun Məzəm kəndində anadan olmuşdur. O ömrünün uşaqlıq illərini həmin kənddə keçirmiş və orada orta təhsil almışdır. 1941-ci ildə Böyük Vətən Müharibəsi başlayanda müharibənin dəhşətli anları Cavanşir Əfəndiyevin ailəsindən də yan keçməmişdir. O ömrünün 20-ci illərində bir çox vətən oğulları kimi müharibəyə göndərilmişdir. Gənc əsgər ilk dəfə 77-ci atıcı divizyasının tərkibində Krasnodar vilayəti yaxınlığında gedən döyüşlərdə iştirak etmiş, Alman əsgərləri ilə üzbəüz döyüşmüşdür. Həmin döyüşdə Cavanşir Əfəndiyev ağır yaralanmış və onu Novorasiysk şəhərində yerləşən hospitala göndərmişlər. O burada bir ay müalicə olunduqdan sonra öz arzusu ilə yenidən cəbhəyə getmiş və "Malaya zemlya" torpaqlarında gedən döyüşlərdə iştirak etmişdir. Ağır döyüşdə ikinci dəfə yaralanan Cavanşir Əfəndiyev bir ay müalicə olunduqdan sonra yenidən cəbhəyə qayıtmışdır. Ümumiyyətlə, Böyük Vətən Müharibəsində olduqca fəal iştirak edən gənc əsgər heç nədən çəkinməmiş, ən ağır döyüşlərdə iştirak etmiş və bu döyüşlərdə bir neçə dəfə yaralanmışdır. Lakin axırıncı dəfə ağır döyüşlərin birində yaralanan Cavanşir Əfəndiyev ikinci qrup əlil kimi arxa cəbhəyə göndərilmişdir.

Cavanşir Əfəndiyevin müharibə illərindəki fədakarlığı həmişə yüksək qiymətləndirilmiş və o 1944-cü ildə Polşa torpaqlarının azad olunmasında fəal iştirak etdiyinə görə "İgidliyə görə" medalı ilə təltif olunmuşdur.

Böyük Vətən Müharibəsindən yüksək mükafatlarla vətənə qayıdan C.Əfəndiyev doğma rayonunda əmək fəaliyyətinə başlamış və uzun müddət Ağstafa rayonundakı idarə, müəssisə və təşkilatlarda müxtəlif vəzifələrdə işləmişdir. O müharibə illərində göstərdiyi şücayəti istehsalatda da davam etdirmiş, ona etibar olunan hər bir vəzifəni şərəflə yerinə yetirmişdir.

C.Əfəndiyev müharibə və əmək veteranı kimi həmişə rayon rəhbərliyinin diqqət mərkəzində olmuş, ona daima qayğı göstərilmişdir. Bütün bu məziyyətlərinə görə C.Əfəndiyev təkcə rayonda deyil eləcə də respublikada keçirilən mötəbər tədbirlərdə ön sırada olmuşdu.

C.Əfəndiyev ömrünün son günlərinə kimi çalışmış, uzun müddət Rayon Müharibə Veteranları Şurasının sədri vəzifəsində işləmiş, rayonun nüfuzlu ağsaqqalı kimi hörmət və məhəbbət sahibi olmuşdur.

Cavanşir Əfəndiyev dünyasını dəyişsə də o heç vaxt unudulmayacaq, rayon ictimaiyyətinin qəlbində əbədi yaşayacaqdır.

Allah rəhmət eləsin.

**Məhərrəm Quliyev, Ramiz Tatarov, Aslan Surxayev, Xəqani Səfərov, Elsevər Aslano, İlqar Əliyev, Aydın Hacıyev, Lalə Eyyubova, Şaiq Qurbanov, Firdovsi Heydərli, Kamran Abbasov, İbrahim Əliyev, Yaqub İsmayılov, Fatma Vəliyeva, Etibar Hacıyev, Nəsib Hacıyev, Fərhad Əliyev.**

# Etibarsız sayılır

Aşağı Göycəli kənd sakini Əsgərov Qədir Əli oğlunun adına olan Torpağın mülkiyyətə verilməsinə dair JN-448F nömrəli (kod:50208038) şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

* * *

Tatlı kənd sakini Məmmədov Qəhrəman Mansır oğlunun adına olan Torpağın mülkiyyətə verilməsinə dair JN-266A nömrəli (kod:50210018) Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

* * *

Zəlimxan kənd sakini Orucova Tərlan Oruc qızının adına olan 542 nömrəli qeydiyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Dağ Kəsəmən kənd sakini Qarayusifov Mayıl Fərhad oğlunun adına olan Torpağın mülkiyyətə verilməsinə dair JN-296A nömrəli Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

# Allah rəhmət eləsin!

Rayon İcra Hakimiyyəti aparatının işçiləri Rayon Müharibə Veteranları Şurasının sədri
**Cavanşir Əfəndiyevin**
vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə, yaxın qohumlarına başsağlığı verir.

---

Ağstafa rayon Ağsaqqallar Şurasının idarə heyətinin üzvləri Muğanlı kəndində uzun müddət müəllim işləmiş, hörmətli el ağsaqqalı
**Gülməmməd Hüseynovun**
vəfatından kədərləndiklərini bildirir, mərhumun ailə üzvlərinə, doğmalarına və yaxın qohumlarına dərin hüznlə başsağlığı verirlər.

---

"Ağstafa" qəzetinin əməkdaşları Rayon Müharibə Veteranları Şurasının sədri
**Cavanşir Əfəndiyevin**
vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə, yaxın qohumlarına başsağlığı verir.

# Ənənə davam edir

Artıq bir neçə ildir ki, şəhərimizin idarə, müəssisə və təşkilatlarının əmək kollektivləri hər həftənin şənbə günü iməclik keçirir, şəhərimizin küçə və meydanlarının təmiz saxlanılması üçün əllərindən gələni edirlər. Bu məqsədyönlü iş şəhər ictimaiyyəti tərəfindən rəğbətlə qarşılanır, xeyirxah ənənənin bundan sonra da davam etdirilməsi üçün iməclik iştirakçılarına hamı öz minnətdarlığını bildirir.

Ötən dövrdə iməclik günü şəhərimizdə yol kənarlarında yüzlərlə dekorativ və meyvə ağacları əkilmiş, yaşıllıqlar salınmışdır. İməclik günü təmizlik işləri aparılması ilə yanaşı həm də əkilmiş ağaclar suvarılır, piyadalar üçün ayrılmış səkilərdə abadlıq işləri görülür.

Həftənin şənbə günü əmək kollektivləri öz ənənələrinə sadiq qalaraq yenə də öz xeyirxax işlərini davam etdirmiş, kütləvi surətdə iməcliyə çıxmışlar.





BAŞ REDAKTOR:
İBRAHİM ƏLİYEV

Həmtəsisçi:
"Ağstafa" qəzetinin jurnalist kollektivi
Şəadətnamə № 308

Redaksiya heyəti
L.Eyyubova, L.İsayeva, K.Abbasov, Q.Heydərov, İ.Əliyev, S.Qaratorpaq, G.Kərimov, A.Tağızadə, F.Heydərli

Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Mətbuat firması" mətbəəsində çap olunmuşdur.

Ünvan:
Ağstafa şəhəri, Heydər Əliyev pros. - 10
Tel: 5-14-56
mob: (050) 344-26-20
Tiraj: 1000